# Yollar abad, həyat rahat



## Azərbaycan yol infrastrukturuna görə MDB-də 1-ci, dünyada 27-cidir

8

# Yollar abad, həyat rahat

**Son 20 ildə Azərbaycanın yol infrastrukturu yenilənərək keyfiyyət reytinqində MDB dövlətləri arasında 1-ci, dünyanın 140 ölkəsi arasında 27-ci olub. Bu yüksək reytinq 2003-2023-cü illər ərzində ölkədə 6782,6 kilometr respublika, 11418,7 kilometr yerli əhəmiyyətli, 2454,4 kilometr Bakı və 47,9 kilometr Sumqayıt şəhər yolları olmaqla 20 min 703,6 kilometr uzunluğunda təzə yolların tikilməsi, yenidən qurulması və təmiri hesabına əldə edilib.**



## Azərbaycan yol infrastrukturuna görə MDB-də 1-ci, dünyada 27-cidir

Təkcə 2023-cü ildə ölkə üzrə 881,7 kilometr uzunluğunda avtomobil yolları salınıb və yenidən qurulub. Həmin işlərin 418, 8 kilometri respublika, 418,5 kilometri yerli əhəmiyyətli yollardır. Bakı şəhəri üzrə isə bu göstərici 44,4 kilometr olub. Göründüyü kimi, yol infrastrukturunun yenilənməsi sahəsində görülən işlər daha çox bölgələri əhatə edir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları çərçivəsində respublikanın bütün bölgələrində yeni yollar çəkilib və əsaslı təmir olunub, çoxlu sayda körpülər, yol qovşaqları tikilib, bir sözlə, yol infrastrukturu büsbütün yaxşılaşdırılıb. Hazırda da bölgələrdə yol infrastrukturunun yenilənməsi istiqamətində işlər ardıcıl və intensiv şəkildə davam edir. Üstəlik qarşıdakı dövrdə bütün kənd yollarının təmirinə nail olmaqla bağlı ciddi vəzifə qarşıya qoyulub.

Bölgələrdə görülən işlərdən söz düşəndə Sabirabad şəhəri daxilində uzunluğu 5,9 kilometr olan, Ulu Öndər Heydər Əliyevin adını daşıyan prospektin, Zərdab rayonunda 13 kilometrlik Ağabağı-Kəndəbil-Şıxbağı-Nəzəralılı avtomobil yolunun, eləcə də Xaçmaz (30 kilometr), İmişli (43,5 kilometr), Masallı (38 kilometr), Zaqatala (22,3 kilometr), Beyləqan (26 kilometr), Qax (12,5 kilometr), Siyəzən (27 kilometr) rayonları ərazisində kəndlərarası avtomobil yollarının yenidən qurulmasını, eləcə də Neftçalada 42, Salyanda 33 kilometr avtomobil yollarının əsaslı təmirinə başlanılmasını qeyd etmək yerinə düşərdi.

Yollar çəkilən, yaxud təmir olunarkən onun keyfiyyəti də diqqətdə saxlanılır. Xüsusən qonşu dövlətlərlə sərhəd yollarının keyfiyyətinə daim nəzarət olunur. Bunun nəticəsidir ki, Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 61,4 kilometrlik hissəsi yüksək keyfiyyətlə əsaslı təmir edilib. Hazırda isə Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun (M-3) 26 kilometrlik hissəsində əsaslı təmir işləri gedir və təbii ki, keyfiyyətlə.

Ötən il həmçinin M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun 5,3 kilometr hissəsində beton örtük sökülərək asfalt-beton örtüklə əvəz edilib. Paralel olaraq il ərzində həmin yolun 21-ci kilometrində uzunluğu 45, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 20,2-ci kilometrində uzunluğu 30, Mərdəkan prospektinin Qala-Pirallahı avtomobil yolu ilə kəsişməsində uzunluğu 65,4 və Zuğulba prospektində uzunluğu 65, Zığ-Hövsan avtomobil yolunun 1,8, 2,7 və 4,4-cü kilometrlərində hər birinin uzunluğu 74 metr olan 7 yerüstü piyada keçidinin tikintisi başa çatdırılaraq əhalinin istifadəsinə verilib. Bununla yanaşı, 31 kilometrlik M-5 Yevlax-Zaqatala-Gürcüstanla dövlət sərhədi-Kərimli avtomobil yolu və iki körpü əsaslı təmir olunub.

2023-cü ilin sentyabr ayında yağıntıların normadan artıq, leysan xarakterli, intensiv və güclü olmasından dolayı Xaçmaz rayonunda Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 27-ci kilometrliyindəki Qudyalçay üzərində inşa edilmiş körpü qəzalı vəziyyətə düşmüşdü. Yol işçilərinin səyi nəticəsində körpü qısa müddətdə təmir edildi. Həmin vaxt Astara rayonu ərazisindəki Təngərud çayı və Şiyəkəran, Vaqo kəndlərini əhatə edən Vaqo çayı üzərində tikilmiş körpülər də dağılmışdı. AAYDA tərəfindən bu körpülər də az zamanda bərpa olundu.

Onu da qeyd edək ki, bütün bu işlər daxili və xarici investorların hesabına başa gəlib. Daxili investisiya hesabına yerinə yetirilən respublika əhəmiyyətli layihələr üzrə M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun 150 kilometrlik hissəsinin tikintisi (150 kilometr, 4 hərəkət zolaqlı) uğurla başa çatdırılıb. Bakının Xətai rayonunda "Ağ şəhər" layihəsi çərçivəsində yolların (I mərhələ) və 8 Noyabr prospektində piyada körpüsünün inşası, Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun yenidən qurulması (Ağsu çayı ilə kəsişməsində yeni körpünün tikintisi ilə birlikdə) və piyada keçidlərinin tikintisi də daxili imkanlar hesabına başa gəlib.

Xarici investisiyaya gəldikdə, 2023-cü ildə M-2 magistral avtomobil yolunun Gəncə-Gürcüstan Respublikası ilə dövlət sərhədi hissəsinin 4 zolağa genişləndirilməsi (130,15 kilometr, 4 hərəkət zolaqlı) və M-3 Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun Yenikənd-Salyan-Biləsuvar hissəsinin yenidən qurulması layihələri xarici sərmayə hesabına reallaşıb. M-2 Bakı-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun Gəncə-Qazax-Gürcüstan sərhədi hissəsinin 4 zolağa genişləndirilməsi layihəsinin Gəncə şəhərindən Qazaxbəyli kəndinədək olan 102 kilometr hissəsinin tikintisini də xarici investorlar maliyyələşdirib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 4 fevral, № 24.- S.1, 8.